

# Ağstafa gözəlliklər diyarına çevrilir

Müasir dünyanın inkişafında mədəni intibahın rolu olduqca böyükdür. İnsanları və xalqları bir-birinə bağlayan əsas dəyərlərdən biri sözsüz ki, mədəniyyətdir. Məhz mədəniyyət müasir Azərbaycanın dünya ölkələri arasında nüfuzunun daha da yüksəlməsinə müstəsna şəkildə xidmət edir. Bütün bunlar isə möhtərəm prezidentimiz İlham Əliyevin mədəni intibahımıza hesablanan siyasəti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın mədəni hamiçiliyinin təzahürləridir. Ölkəmizin paytaxtı qədər gözəlləşməyə can atan, yeniliklərə qucaq açan bölgələrindən biri də qədimliyi ilə müasirliyin sintezindən özünə şöhrət qazanan Ağstafadır.

Yaxın illərdə açılışı olan, bütün respublikaya və hətta qonşu dövlətlərə səs salan Heydər Əliyev Mərkəzi, Atıcılıq və Peyntpol Mərkəzi, Tarixi və Müasir Abidələr Parkı kimi unikal layihələrdən sonra rayonda Heydər Əliyev Mərkəzində növbəti təmir işlərinin aparılması və bunun nəticəsində bu əzəmətli binanın görünüşünün tamamilə yenilənməsi, bu günlərdə isə cənab Prezident İlham Əliyevin imzaladığı 30 iyun 2014-cü il tarixli "Ağstafa rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" Sərəncamına əsasən təməli qoyulan, ölkənin ən gözəl və qeyri-adi mədəniyyət ocaqlarından biri olan Ağstafa Musiqi Mərkəzi rayonun inkişaf səviyyəsinin layiqli göstəricisidir.

Bu yaxınlarda təntənəli şəkildə təməlqoyma mərasimi təşkil edilən bu memarlıq əsəri hələ layihə şəklində ona tamaşa edənləri heyran qoyub. Xalqımızın qədim və milli musiqi aləti olan ud formalı konstruksiya işi sözün əsl mənasında bütöv bir arxitektura ansamblını xatırladır. Hər zaman ilklərə imza atmağa vərdiş etmiş Ağstafada tikiləcək Musiqi Mərkəzi adı və ampulası, eləcə də təyinat baxımından digərlərindən xeyli dərəcədə fərqlənir. Belə ki, burada həm müasir şəraitlə təchiz olunmuş sinif otaqlarında musiqi dərsləri tədris olunacaq, həm də geniş və yaraşıqlı konsert salonu, qrim otağı və yeməkxana, nəhayət, inzibati otaqlar fəaliyyət göstərəcək.

Burada Şərq və Qərb memarlığının incilərindən necə məharətlə istifadə olunacaqsa, onların dahi musiqi xadimlərinin tanıtım stendləri də özünə eyni şəkildə yer alacaqdır. Geniş və yaraşıqlı foye, işıqlı dəhlizlər Mərkəzə əlavə bir füsunkarlıq qatacaqdır. Mərkəzin həyatında yaradılacaq notların abidəsi, mədəni istirahət parkı da bu əsərin bitkinliyinə dəlalət etməkdədir.

1970-ci illərdən istifadədə olan və orta məktəbin yardımçı binası kimi planlaşdırılan köhnə musiqi məktəbinin bu cür əzəmətli Mərkəzlə əvəz olunması sözsüz ki, hər kəsin sevincinə səbəb olub. 200-ə yaxın şagirdin darısqal, şəraitsiz vəziyyətdə musiqi təhsili aldığı bir yerin, 350 nəfərə yaxın şagirdin mükəmməl şəkildə təhsil alacağı bir Mərkəzlə əvəz olunmasını, Ağstafa sakinləri ölkə rəhbərliyinin bölgəyə olan böyük diqqət və qayğısı kimi minnətdarlıqla anırlar.

Uzun illərdir istifadədə olan və funksionallıq baxımından günün tələbləri ilə səsləşməyən rayon Mədəniyyət Evi də yuxarıda qeyd olunan sərəncama əsasən yenidən qurulmağa başlayıb. Belə ki, əzəmətli Kitab abidəsi, Saz abidəsi, S.Vurğun və Heydər Əliyev parkları kimi mədəniyyət abidələri və istirahət yerləri ilə eyni səviyyədə dura biləcək mədəniyyət mərkəzinə ehtiyac yaranmışdır.

Bu ehtiyacı nəzərə alan ölkə başçısı ağstafalılara yeni, müasir Mədəniyyət Evi bağışlamaq qərarını verib. İndi tam əminliklə demək olar ki, həm funksionallığı, həm memarlıq elementlərinin zənginliyi və dəqiqliyi, həm də texniki imkanları baxımından rayon Mədəniyyət Evi Ağstafanın ən vacib tikililəri və ictimai binalarından biri kimi sakinlərdə unudulmaz, xoş təəssüratlar yaradacaqdır.

Bütün bunlar ölkə miqyasında həyata keçirilən, Ağstafada isə proqram xarakterli sürətli inkişaf magistralının yalnız mədəniyyət sahəsindəki nailiyyətləridir.

**Şübhəsiz ki, çox keçmədən biz hamılıqla bu əzəmətli binaların açılışını edib onlardan əlamətdar hadisələrin qeyd edilməsi və balalarımızın parlaq sabahı naminə istifadə edəcəyik. Uğurlu inkişafın və parlaq gələcəyin təminatçısı olan möhtərəm prezidentimiz cənab İlham Əliyevin Azərbaycan adına gördüyü yorulmaz işlərin təzahürü kimi...**

